Fevral 2016

# PwC Azerbaijan Times

## 3 saylı Buraxılış

### Buraxılışın əsas xəbərləri:

- **“Publik hüquqi şəxslər” haqqında Azərbaycan Respublikasının Qanunu**
- **Azərbaycan Respublikası Prezidenti tərəfindən Maliyyə Bazarlarına Nəzarət Palatasının yaradılması barədə Fərman**
- **“Mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması haqqında” Azərbaycan Respublikası Presidentinin Fərmanı**
- **Azərbaycan Respublikasının Presidenti tərəfindən “Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasının yaradılması haqqında” Fərman**



Burada əks olunan məlumatlarla bağlı hər hansı bir sual yaranarsa, Marketing və Kommunikasiya məsələləri üzrə Menecer Aysel Süleymanova ilə əlaqə saxlaya bilərsiniz.

aysel.suleymanova@az.pwc.com

**PwC Azərbaycan**

Landmark Ofis Plaza III, 12-ci mərtəbə
90A Nizami küçəsi
Bakı AZ1010, Azərbaycan

Tel: +994 12 497 2515
Faks: +994 12 497 7411

www.pwc.com/az

© 2016 PwC. Bu xəbərdə əks olunan informasiya yalnız ümumi məlumat xarakteri daşıyır və hərtərəfli hüquqi analiz təşkil etmir. Məlumatların dəqiqliyinə və tamlığına dair heç bir zəmanət verilmir. Hər hansı bir nəticəyə gəlib onu tətbiq etməzdən (və ya etməməzdən) əvvəl oxucular öz spesifik məsələləri üzrə mütəxəssislərin məsləhətini almalıdırlar. Oxucuların bu xəbərlərdəki məlumata əsaslanıb hər hansı bir nəticəyə gəlib onu tətbiq etmələrinə və ya hər hansı vacib məqamı nəzərdən qaçırmalarına görə biz heç bir məsuliyyət daşımırıq.

### *“Publik hüquqi şəxslər” haqqında Azərbaycan Respublikasının Qanunu*

3 fevral 2016-cı il tarixində “Publik hüquqi şəxslər” haqqında Azərbaycan Respublikasının Qanunu dərc edilmiş və qüvvəyə minmişdir. Bu qanun Azərbaycanda hüquqi şəxslərin yeni təşkilatı forması olan publik hüquqi şəxsləri təqdim edir. Qanuna əsasən publik hüquqi şəxs dövlət və ya bələdiyyə orqanı olmadan ancaq dövlət və ya bələdiyyə müəssisələri tərəfindən yaradılan ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olan təşkilatdır. Publik hüquqi şəxs öz nizamnaməsinə, əmlakına və təsisçiləri tərəfindən verilmiş əmlak vasitəsi ilə formalaşan nizamnamə kapitalına malikdir. Dövlət və bələdiyyələr tərəfindən publik hüquqi şəxsə verilən əmlak ancaq onun nizamnaməsində müəyyən edilmiş məqsədlərlə istifadə edilə bilər. Dövlət və bələdiyyə yaratdıqları publik hüquqi şəxsin öhdəlikləri üzrə cavabdehlik daşımır və onun fəaliyyəti ilə bağlı zərər üçün publik hüquqi şəxsə verdiyi əmlakın dəyəri həddində risk daşıyır.

Publik hüquqi şəxsin yaradılması, yenidən yaradılması və ləğv edilməsi Azərbaycan Respublikasının Mülki Məcəlləsi və onun nizamnaməsi ilə tənzimlənir.

Nazirlər Kabinetinə 3-5 ay ərzində müvafiq qanunvericilik aktlarının “Publik hüquqi şəxslər haqqında” Qanuna nə dərəcədə uyğun gəldiyi barədə tövsiyələrini vermək tapşırılmışdır.

### *Azərbaycan Respublikası Prezidenti tərəfindən Maliyyə Bazarlarına Nəzarət Palatasının yaradılması barədə Fərman*

3 fevral 2016- cı il tarixində Azərbaycan Respublikası Prezidenti tərəfindən publik hüquqi şəxs olan Maliyyə Bazarlarına Nəzarət Palatasının yaradılması barədə Fərman imzalanmışdır. Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Sığorta Nəzarəti Xidməti və Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidməti ləğv edilmiş və onların istifadəsində olan dövlət əmlakı Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasına onun nizamnaməsi qüvvəyə mindiyi andan veriləcəkdir.

MBNP-nın səlahiyyətləri qiymətli kağızlar bazarı, investisiya fondları, sığorta və kredit təşkilatlarının idarəedilməsi, həmçinin, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınmasını özündə cəmləşdirir.

"Qiymətli kağızlar haqqında", "Banklar haqqında", "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunlarının yeni qəbul olunmuş qanuna uyğunluğunun yoxlanılması və MBNP-nın fəaliyyətə başlaması üçün müvafiq hərəkətlərin həyata keçirilməsi üçün işçi qrupu yaradılmışdır.

### *"Mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması haqqında" Azərbaycan Respublikası Presidentinin Fərmanı*

3 fevral 2016-cı il tarixində "Mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması haqqında" Azərbaycan Respublikası Presidentinin Fərmanı qüvvəyəminmişdir. Fərmana əsasən, şuraların yaradılmasının məqsədi sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin şikayətlərinə baxılması sahəsində şəffaflığın və obyektivliyin təmin edilməsi, bu sahədə şəxslərin hüquqlarının və qanunla qorunan maraqlarının müdafiəsidir. "Mərkəzi icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnaməsi" və "Yerli icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnaməsi" 3 fevral 2016-cı il tarixli fərqli Prezident fərmanları ilə təsdiq edilmişdir, və onlara əsasən mərkəzi və yerli icra hakimiyyəti orqanlarının hərəkət və ya hərəkətsizliyinə, həmçinin onlar tərəfindən qəbul edilmiş qərarlara dair şikayətlər müvafiq apellyasiya şuralarına ünvanlanmalıdır.

Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının Apellyasiya Şuralarının yazılı qərarlarından şikayət Azərbaycan Respublikası Prezidenti yanında Apellyasiya Şurasına ünvanlana bilər. Qəbul edilmiş qərarlar barədə məlumat kütləvi informasiya vasitələrində, həmçinin Şuranın rəsmi internet səhifəsində dərc edilməlidir.

### *Azərbaycan Respublikasının Presidenti tərəfindən "Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasının yaradılması haqqında" Fərman*

3 fevral 2016-cı il tarixində Azərbaycan Respublikasının Presidenti tərəfindən "Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasının yaradılması haqqında" Fərman imzalanmışdır. Fərmana əsasən, Şuranın səlahiyyətləri mərkəzi və yerli icra hakimiyyəti orqanlarının Apellyasiya Şuralarının qərarlarına pilləli qaydada baxaraq müvafiq prosedurları təkmilləşdirməkdən ibarətdir.

Presidentin 3 fevral tarixində digər Fərmanla təsdiqlədiyi Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasının Əsasnaməsinə əsasən Şura fiziki və hüquqi şəxslərin mərkəzi və yerli icra hakimiyyəti orqanlarının Apellyasiya Şuralarının qərarlarından, hərəkət və hərəkətsizliklərindən şikayətlərinə baxacaq.

Şikayətlərə baxıldıqdan sonra Şura tərəfindən qəbul edilmiş qərarlar mütləq mərkəzi və yerli icra hakimiyyəti orqanları, fiziki və hüquqi şəxslər tərəfindən imzalanmalıdır. Buna baxmayaraq, Şura tərəfindən qərarların qəbul edilməsi, fiziki və hüquqi şəxsləri mərkəzi və yerli icra hakimiyyəti orqanlarının Apellyasiya Şuralarının qərarlarından "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının qanununa əsasən məhkəmə qaydasında şikayət verməkdən məhrum etmir.